# İlham Əliyevin müəllifliyi ilə sərhədləri aşan layihə

## Bir dəhliz, iki dövlət - Bakı və Vaşinqton arasında salınan tərəfdaşlıq körpüsü

**Zəngəzur dəhlizi (TRIPP) Azərbaycan ərazisindən və Ermənistanın eyniadlı bölgəsindən keçərək Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin əsas hissəsini birləşdirməyə imkan verir. Dəhliz Azərbaycanın ərazi bütövlüyünün möhkəmlənməsi, regional iqtisadi inteqrasiyanın güclənməsi və ticarət əlaqələrinin genişlənməsi baxımından böyük əhəmiyyət kəsb edir.**

Bu kontekstdə beynəlxalq tərəfdaşlarla, xüsusən də ABŞ ilə strateji əməkdaşlığın gücləndirilməsi regionda həyata keçirilən iri infrastruktur layihələrinin əhəmiyyətini daha da artırır. Hazırkı ABŞ-Azərbaycan münasibətlərinin strateji əməkdaşlıq əsasında inkişaf etdiyi bir zamanda Zəngəzur dəhlizi (TRIPP) regionda nəqliyyat və ticarət əlaqələrinin genişlənməsi, həmçinin enerji təhlükəsizliyinin təmin olunması baxımından mühüm rol oynayır. Dəhliz təkcə iki ölkə arasında iqtisadi və siyasi əməkdaşlığın daha da dərinləşməsinə şərait yaratmayacaq, həm də ABŞ-nin Cənubi Qafqazdakı mövqeyini gücləndirəcək.

ABŞ-nin Cənubi Qafqaz siyasətində əsas prioritetlərindən biri enerji resurslarının təhlükəsiz və sərbəst daşınmasıdır. Bu gün Azərbaycan zəngin enerji ehtiyatlarına malik olmaqla yanaşı, həmçinin regionda tranzit ölkə kimi çıxış edir. Zəngəzur dəhlizi (TRIPP) tranzit imkanlarını genişləndirərək enerji və ticarət yollarının şaxələndirilməsinə şərait yaradacaq ki, bu da ABŞ-nin regiondakı strateji maraqlarına uyğundur. ABŞ və Azərbaycan arasında iqtisadi əməkdaşlıq imkanlarının genişləndiyi bir vaxtda Amerika şirkətləri enerji sektorunda fəaldır və yeni nəqliyyat dəhlizləri onların regiona maraqlarını daha da artırır. Bu isə iqtisadi əlaqələrin dərinləşməsinə, o cümlədən nəqliyyat infrastrukturlarının inkişafına təkan verə bilər.

Sirr deyil ki, Prezident İlham Əliyev son illər regional nəqliyyat və logistika dəhlizlərinin formalaşması istiqamətində fəal siyasət yürüdür. Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan nəqliyyat qovşaqlarında mərkəzi oyunçuya çevrilərək Zəngəzur dəhlizinin reallaşdırılması üçün diplomatik səylərini gücləndirib. Prezident dəfələrlə vurğulayıb ki, Zəngəzur dəhlizi təkcə Azərbaycanın daxili ehtiyaclarına deyil, həm də regionun və daha geniş coğrafiyanın iqtisadi maraqlarına xidmət edən beynəlxalq layihədir. Ümumiyyətlə, İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri ABŞ də daxil olmaqla Qərb ölkələrinin diqqətini cəlb edir və əməkdaşlıq üçün real platforma yaradır. Xüsusən Bakı-Tbilisi-Ceyhan (BTC) neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və "Cənub qaz dəhlizi" kimi iri enerji layihələrinin reallaşdırılması Azərbaycanın Qərblə, o cümlədən ABŞ ilə strateji əməkdaşlığını möhkəmləndirib. Dövlətimizin başçısı bu layihələrin təşəbbüskarı və siyasi təminatçısı kimi çıxış edərək Azərbaycanı etibarlı tərəfdaş statusuna yüksəldib. Ona görə də qəti deyə bilərik ki, nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və açılacağı gözlənilən Zəngəzur dəhlizi (TRIPP) kimi layihələr regionda multimodal (Azərbaycanın bir neçə növ nəqliyyat sistemini birləşdirən kompleks logistika mərkəzinə çevrilməsi) tranzit infrastrukturunun qurulmasına xidmət edir. Bu isə ABŞ və Avropa şirkətlərinə regiona investisiya yatırmaq, yükdaşıma marşrutlarını şaxələndirmək və Çin-Avropa ticarətində alternativ yollar formalaşdırmaq baxımından strateji imkanlar təqdim edir. Belə təşəbbüslər həm regional əməkdaşlığı gücləndirir, həm də Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunu nümayiş etdirir.

O da bəllidir ki, Prezident İlham Əliyev Zəngəzur dəhlizini (TRIPP) dünyaya strateji layihə kimi təqdim etmiş və dəfələrlə açıqlamışdır ki, bu dəhliz təkcə Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsinin təmin olunması deyil, həm də beynəlxalq ticarət, enerji və nəqliyyat marşrutlarının yenidən qurulması üçün vacib bir faktora çevrilməlidir. İlham Əliyev bu məsələdə qonşu və ya yaxın dövlətlərlə bərabər, Qərb dövlətləri ilə də əməkdaşlığı önə çıxarır.

ABŞ bu baxımdan Azərbaycanın təşəbbüslərinə maraqla yanaşır. Xüsusən enerji təhlükəsizliyi, ticarət marşrutlarının şaxələndirilməsi və regional sabitlik ABŞ-nin Cənubi Qafqaz siyasətinin əsas prioritetləri sırasında olduğu üçün Zəngəzur dəhlizi (TRIPP) də həmin prioritetlərlə üst-üstə düşür. Bu yerdə qeyd edək ki, dövlətimizin başçısı ABŞ şirkətləri ilə əməkdaşlığa da açıq mövqe sərgiləyir. Şübhəsiz ki, bu da Zəngəzur dəhlizi (TRIPP) ətrafında formalaşacaq yeni nəqliyyat və logistika mərkəzlərinə ABŞ şirkətlərinin marağını artırır və iki ölkə arasında iqtisadi əlaqələrin dərinləşməsinə xidmət edir.

Təsadüfi deyil ki, Vaşinqton səfəri zamanı da Prezident Əliyev ABŞ-nin bu layihəyə fəal dəstəyini vurğulayaraq demişdir: "Vaşinqtonda xüsusi bir sənədin imzalanması da planlaşdırılır. Bu sənəd Azərbaycanın Zəngəzur dəhlizindən maneəsiz istifadə etməsinə imkan verəcək". İlham Əliyev bu günlər ABŞ-nin nüfuzlu televiziya kanalı olan "Fox News"a müsahibəsində isə bildirmişdir: "İstər regionumuzdan olan, istərsə də regionumuzdan kənarda yerləşən istənilən dövlət tərəfindən bugünkü nailiyyətlə bağlı hər hansı bir mənfi fikir bildirilməsi çox çətin olar. Çünki bu gün biz sülh istiqamətində yekun addımı atdıq". Prezident Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu (TRIPP) ilə bağlı əldə edilmiş razılaşmanın heç kimə qarşı olmadığını deyərək vurğulamışdır ki, bu, yeni bağlantı layihəsidir və o, beynəlxalq nəqliyyat marşrutlarının mühüm hissələrindən biri olacaq.

Bütün bunlar onu deməyə əsas verir ki, Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın regional mövqeyini möhkəmləndirir və ABŞ ilə strateji əməkdaşlığı daha çox inkişaf etdirmək üçün mühüm vasitəyə çevrilir. ABŞ-nin bu dəhlizə maraq göstərməsi və layihəni dəstəkləməsi təkcə Cənubi Qafqazda sabitlik və davamlı inkişaf üçün yeni imkanlar açmır, həm də regionda qlobal əməkdaşlıq və sülhü təmin edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 16 avqust (№171).- S.3.